*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 11, 2024*
*Səh. 103-110*

https://doi.org/10.62837/2024.11.103

**İLAHƏ BAYRAMOVA**
**ADU**
**ilahe_314@mail.ru**

# AZƏRBAYCAN DİLİNDƏ SİFƏTİN DƏRƏCƏLƏRİNİN YARANMASININ MORFOLOJİ VƏ SİNTAKTİK ÜSULLARI

**Açar sözlər:** *sifət, sifətin dərəcələri, müqayisə, komparativ*

**Ключевые слова:** *прилагательное, степени прилагательного, сравнение, компаратив*

***Keywords:*** *adjective, degrees of adjective, comparison, comparative*

Azərbaycan dilində sifətin makrokomparativlik sahəsini təmsil edən azaltma və çoxaltma mikrosahələri əsas formaya münasibətdə əlamət və keyfiyyətin hansı istiqamətdə dəyişikliyə uğradığını göstərir. Dəyişiklikdə əsas əlamətlə müqayisədə ya əlamətin yüksəlməsi, ya da zəifləməsi ifadə olunur. Əlamət və keyfiyyətdə baş verən bu fərqli dəyişiklik dilin qrammatik sistemindəki müxtəlif morfoloji və sintaktik vasitələrlə ifadə olunur. Bunu nəzərə alaraq, ilk növbədə, sifətin azaltma dərəcəsini yaradan vasitələri nəzərdən keçirməyə çalışacağıq. Azaltma dərəcəsində əşyaya xas keyfiyyətin adi dərəcədəkindən aşağı olması öz əksini tapır. Azərbaycan dilində sifətin bu dərəcəsinə başqa tərzdə yanaşanlar da vardır. Məsələn, A.Q.Eyvazov yazır ki, *"M.Mövsümzadə Azərbaycan dilində sifətin adi, müqayisə və üstünlük dərəcəsindən bəhs edir. O, sifətin qüvvətləndirmə, azaltma və çoxaltma formalarını isə subyektiv kateqoriya adlandırır"* [3, s.19].

Azərbaycan dilində sifətə xas dərəcə kateqoriyası haqqında ilk fikir M. Kazımbəyə məxsusdur. Müəllifin sifətin dərəcə kateqoriyası haqqında fikirləri onun 1839-cu ildə nəşr etdirdiyi "Общая грамматика турецко-татарского языка" adlı əsərində öz əksini tapmışdır. Müəllif Azərbaycan dilində sifətin iki dərəcəsinin - müqayisə və üstünlük dərəcələrinin olduğunu göstərmişdir [6, s.38].

M.H.Hüseynzadə isə sifətin azaltma dərəcəsinə belə şərh vermişdir: "*Azaltma (kiçiltmə) dərəcəsi onun təyinlik dərəcəsini adi haldan qismən az göstərir; sarı adi bir rəng, sarımtıl isə adi sarılıqdan xeyli az sarı bir rəngi, sarıya çalan bir rəngi bildirir*" [5, s.80]. Müəllif Azərbaycan dilində azaltma dərəcələrinin sintetik və analitik yolla düzəldiyini də qeyd etmişdir. O, azaltma dərəcəsinin sintetik yolla düzəlməsindən bəhs edərkən, onun əsasən dörd şəkilçi növünü göstərmişdir:

1) /–mtıl (-ımtıl, -umtul, -ümtül və -mtraq/. Bu şəkilçiləri adi formadakı sifətlərə artırmaqla onların azaltma dərəcəsinin yaranmasına xidmət edir. Məsələn: "*Qırmızımtıl parça aldım"; "Sarımtıl rəng mənə xoş gəlir"; "Bozumtul palto ona yaxşı yaraşır"; "Sarımtraq parça xoşuma gəlir";*

2) /–raq, -rək/ şəkilçisini artırmaqla. Məsələn: "*Gödərək kişi bizə yaxınlaşdı"; "O, yastıraq daşı götürüb kənara qoydu";*

3) /–sov/ şəkilçisini artırmaqla. Məsələn: "*Uzunsov", "dəlisov"; "Onun çox dəlisov xasiyyəti var";*

4) /–şın/ şəkilçisini artırmaqla. Məsələn: "Sarışın oğlanın hərəkəti hamını təəccübləndirdi".

Azərbaycan dilində sifətin azaltma dərəcəsinin əmələ gəlməsində aşağıdakı sözlərdən istifadə olunur: "ala", "təhər", "açıq". Məsələn:

1) "*O, verilən suallara ala-yarımçıq cavab verdi";*

2) "*Müqəddəs Məryəm yaxası, ətəyi cırılmış açıq – boz rəngli çit bir don geymişdi və ayaqyalın, başıaçıq səhra ilə qaçırdı"* [4, s.257].

Bəzi mənbələrdə azaltma dərəcəsində keyfiyyət və ya əlamətin adi dərəcədən aşağı olduğu göstərilir. Bu dərəcə vasitəsi ilə keyfiyyətin adi dərəcəli keyfiyyətdən aşağı olduğu ifadə olunur [11, s.66]. Burada azaltma dərəcəsinin kiçiltmə dərəcəsi kimi qəbul edilməsi inkar edilir. M.H.Hüseynzadə isə "azalma" və "kiçiltmə" terminlərini sinonimlər kimi işlətmişdir [5, s.259]. Bu ziddiyyətli fikrin yaranmasına səbəbi isə müqayisədə adı çəkilən əlamətin kiçilməsi deyil, azalmasının nəzərdə tutulmasıdır. Həmin mənbədə qeyd olunur ki, *"azalma dərəcəsi bəzi əsli sifətlərə - raq, -rək –ımtıl, - umtul, ümtül, -sov, -mtraq şəkilçilərini artırmaqla yaranır"* [11, s.66].

Qrammatikaya aid mənbələrdə bu şəkilçilər müqayisə dərəcəsini yaradan şəkilçilər kimi verilir, halbuki bu şəkilçilərlə heç bir keyfiyyət və ya əlamətin müqayisəsi xüsusi ifadə olunmur. Burada ümumi şəkildə bəhs olunan keyfiyyətin az miqdarda olması ifadə edilir. Məsələn, "*bozumtul deyilirsə, əşyanın tamamilə boz olmayıb, azacıq boz rəngə çaldığını, bu əşyada bozluq əlamətinin azacıq olduğu anlaşılır. "Gödərək adam" dedikdə, adamın gödək yox, bir az gödək olduğu anlaşılır. Burada da heç bir müqayisə yoxdur*" [11, s.66].

Bir əşyada müəyyən əlamətin azlığı eyni zamanda nisbət əsasında təyin olunur. Bu isə müqayisədir. Belə müqayisə isə, yuxarıda qeyd etdiyimiz kimi, bütün dərəcələrdə mövcuddur. Ona görə də bunun azalma dərəcəsi deyil, müqayisə dərəcəsi kimi verilməsini düzgün hesab etmək olmaz. M.H.Hüseynzadənin əsərində qeyd edildiyi kimi, "*sifətin azaltma dərəcəsi yalnız şəkilçilərlə deyil, eləcə də sifətlərin əvvəlinə "ala" sözünü əlavə etməklə yaranır. Məsələn, alaqaranlıq, alayarımçıq, alabulanlıq"* [11, s.66].

Ancaq burada yalnız "ala" sözü qeyd olunur. "Təhər", "açıq" sözləri ilə azalma dərəcəsinin əmələ gəlməsi göstərilmir. Əlamət və keyfiyyətdə baş verən azalma adi formadakı əlamətlə müqayisədə aşkara çıxır. Azərbaycan dilində, eləcə də dialekt və şivələrində azaltma dərəcəsinin dörd şəkilçi ilə ifadə olunur: /-mtıl, -ımtıl, -sov, -şın/. AMEA-nın "Müasir Azərbaycan dilinin qrammatikası, II cild," (1980) əsərində azaltma dərəcəsi aşağıdakı kimi təsvir edilmişdir: "*Əlamət və keyfiyyətin adi dərəcəyə nisbətən az dəyişməsini bildirən sifət dərəcəsinə azaltma dərəcəsi deyilir"* [10, s.124]. Lakin bu əsərdə də məsələ tam aydın olmur, çünki burada keyfiyyətin adi dərəcəyə nisbətən az dəyişməsi göstərilir. Bu "az

dəyişikliyin" hansı istiqamətdə baş verməsi (yüksəlmə və ya azalma) göstərilmir. Bu əsərdə Azərbaycan dilində sifətin azaltma dərəcəsinin analitik və ya sintetik yolla düzəldiyi müəyyən edilmişdir.

Əsərlə tanışlıqdan məlum olur ki, onda azaltma dərəcəsinin ifadəsi üçün mövcud /–sov/ və /-şın/ şəkilçiləri qeyd edilməmişdir. Diqqəti çəkən məqam ondan ibarətdir ki, azaltma dərəcəsini analitik yolla ifadəsi üçün yalnız "az" ədatından istifadə olunmuşdur. Məsələn: "*az yaxşı", "az qırmızı".* Amma "ala", "təhər", "açıq" kimi sözlər göstərilməmişdir. Q.Ş.Kazımovun fikrincə, "*azaltma dərəcəsi əlamətin kiçik deyil, az olduğunu göstərir, onun kiçiltmə dərəcəsi deyil, azaltma dərəcəsi kimi adlandırılmasını doğru hesab edir*" [7, s.120]. Müəllif özündən əvvəlki tədqiqatçılardan fərqli olaraq, bu mikrosahənin yaranması üçün /–ımsov/, /-ümsov/ şəkilçilərindən də istifadə olunduğunu yazır. Məsələn: "*ağımsov", "göyümsov".*

Azaltma dərəcəsinin yaranması üçün istifadə edilən şəkilçilərin heç də hamısı eyni dərəcədə məhsuldar deyildir. Məsələn: /-ımtıl/, /-imtil/, /-umtul/, /-ümtül/, /-sov/ kimi şəkilçiləri məhsuldar hesab etmək mümkün olduğu halda, /-raq/, /-rək/, /-şin/ şəkilçiləri haqqında bunu söyləmək mümkün deyildir. Göründüyü kimi, bu şəkilçilər məhdud olaraq, yalnız bir neçə sifətlə işlənə bilir. Məsələn: "*gödərək", "yaxşıraq", "sarışın"* və s. Q.Ş.Kazımov sifətlərin azaltma dərəcəsinin ifadəsi üçün sintaktik üsuldan da istifadə olduğunu qeyd edir və bu üsulda aşağıdakı vasitələrdən istifadə olunduğu göstərir: *"-az", "bir az", "bir qədər" dərəcə zərflərinin sifətlərdən əvvəl işlədilməsi ilə, məsələn: "az maraqlı", "az yaxşı", "bir qədər duzlu", "bir az tutqun". "Orda hava bir az sərintəhər idi"; "ala" sözünün əlamət və keyfiyyət bildirən sözlərin əvvəlinə artırılması ilə, məsələn: "ala-çiy", "ala-qırmızı". "Alaqaranlıq havada yola çıxdılar"; "açıq" sözünün sifətlərin əvvəlinə artırılması ilə, məsələn: "açıq göy", "açıq narıncı";"təhər" sözünün sifətlərə artırılması ilə, məsələn: "qırmızı təhər", "xəstə təhər" və s."* [7, s.121].

Sifətin dərəcələri, eləcə də sifətin azaltma dərəcəsi ilə bağlı A.Q.Eyvazovun fikirləri də maraqlıdır. Müəllif H. Cavidin "Türkcə cərf və nəhv" əsərinə istinad edərək, azaltma dərəcəsinin "ədəmi-ruchan" dərəcəsi adlandırıldığını qeyd edir: "*Həmin dərəcə "az", "daha az" kimi qeyri-müəyyən ədatın sifətdən əvvəl işlədilməsi yolu ilə düzəldilir. Məsələn "altın demirdən az (daha az) faydalıdır"* [3, s.7].

Əşyalardan birinin əlamət və keyfiyyətcə başqasından az olması onların təkcə bir-birinə münasibəti ilə deyil, həm də komparativlik sahəsində müqayisə olunan əşyaların keyfiyyət və ya əlamətləri arasındakı münasibətin əsasında yaranır. Əlamətin azlığını bildirmək baxımından "-şın/-şin" şəkilçisi Azərbaycan dilində çoxdan normalaşmışdır. Bu şəkilçi Azərbaycan dilində hələlik bir /–şın/ fonetik variantında işlədilərək yalnız "sarı" və "qara" kimi əsli sifətlərin sonuna əlavə edilir. Məsələn: "sarışın", "qaraşın".

1) "*Alagöz sarışın", "körpəcə bir qız";* 2. "*Tutu adlı altı-yeddi yaşlı bir qız qaraşın olduğundan anası ona qaraca qız deyərdi".*

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 11, 2024*
*Səh. 103-110*

Bu şəkilçinin Azərbaycan dilində azaltma dərəcəsini yaradan morfoloji vasitə olduğu əksər dilçilər, eləcə də A.Q.Eyvazov tərəfindən qeyd edilmişdir. Müəllif qeyd edir ki, *"müasir türk ədəbi dilində, həmçinin Azərbaycan dilində sifətin azaltma dərəcəsi morfoloji qaydadan başqa sintaktik yolla da düzəldilir. Bunun üçün açıq, alaca sözləri bir neçə rəng bildirən sifətlərdən əvvəl işlədilir"* [3, s.79].

Sifətin azaltma dərəcəsinin ifadəsi morfoloji və sintaktik yolla həyata keçirilir. Burada əşyaya xas əlamət və keyfiyyətin abstrakt şəkildə qəbul edilmiş normadan aşağı olduğu bildirilir. Sifətin ikinci müqayisə dərəcəsi üstünlük dərəcəsidir. Komparativlik sahəsinin üstünlük dərəcəsində müqayisə olunan keyfiyyət və əlamətlərin bir-birinə münasibət göstəriciləri adi formadakı səviyyədən yüksək olur. Məsələn: "*Mən dünyanın ən dərdli adamıyam və heç kimin bundan xəbəri yoxdur"* [4, s.50].

Burada "ən dərdli" sifətin üstünlük dərəcəsindədir. Müqayisə sahəsində iştirak edənlərin hamısı dərdlidir, lakin danışan özünü onlarla müqayisə etdikdən sonra belə qərara gəlir ki, bu keyfiyyətin onda digərlərindən daha yüksək olduğu məlum olur. Ona görə də burada "dərdli" sifətinin üstünlük dərəcəsində işlənməsinə ehtiyac duyulur. Və yaxud "*Ceyran daha böyük sarayların yaxınlığında olmaq istəyirdi*" [4, s.313]. Bu nümunədə də belə bir xüsusiyyət nəzərə çarpdırılır ki, böyük saraylar çoxdur, Ceyran xanım başqa saraylarla müqayisədə "daha böyük" sarayların yaxınlığında olmaq istəyir.

Sifətin üstünlük dərəcəsini şərh edərkən M.Kazımbəy "*sifətin üstünlük dərəcəsi əksər hallarda zərf və ya qüvvətləndirici: ən, qayət ilə, ziyadəsi ilə, ifratilə və s. sözlərlə ifadə olunduğunu"* [6, s.38] göstərir. Ümumiyyətlə, M. Kazımbəyin Azərbaycan dilində sifətin dərəcə kateqoriyası məsələsinə yanaşması daha inandırıcıdır [6].

Azərbaycan dilində sifətin üstünlük dərəcəsi bütün hallarda analitik üsulla, yəni sifətin qarşısında analitik morfem işlətməklə ifadə olunur. O.İ.Musayevin qeydinə görə, "*bu halda sifətin üstünlük dərəcəsinin ifadə vasitəsi "lap" və ya "ən" analitik morfemi olur. Bu morfemlərdən biri, yəni ya "lap", ya da "ən" morfemi adi dərəcədə olan sifətin qarşısında işlədilərək dilimizdə sifətin üstünlük dərəcəsini analitik üsulla düzəldir və üstünlük dərəcəsi mənasını ifadə edir. Məsələn: "Bu lap/ən hündür binadır"* [9, s.49].

H.İ.Mirzəzadə şiddətləndirmə dərəcəsini əşyanın daşıdığı keyfiyyətin və ya əlamətin tamlığını, dolğunluğunu, ikiqatlığını bildirməsi kimi şərh edir [8]. Ümumi dilçilikdə "intensiv" dərəcə adlanan sifətin "şiddət" dərəcəsi struktur baxımdan iki şəkildədir:

a) tam forma. Şiddətləndirmə dərəcəsi müxtəlif nitq hissələrindən (əsasən, sifət, qismən də isim, say) ibarət olan iki eyni sözün təkrarı ilə düzəlir. Eyni kökdən olan sözlərin təkrarı ilə düzəlmiş mürəkkəb söz bu və ya digər ismin əvvəlində gələrək, onun keyfiyyətcə tamlığını ifadə edir. Məsələn: *"Böyük-böyük suların körpüsü ağac"; "Qara-qara dənizlərin gəmisi ağac"; "Qıyma-qıyma ağ ətindən çəkin,*

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 11, 2024*
*Səh. 103-110*

*qara qovurma bişirin".*

Əlavə edək ki, analitik üsulla yaranmış belə dərəcə xüsusiyyəti əvvəllər xeyli aktiv olmuşdur, çünki təkrar üsulu tarixən çox qədimdir. Təkrarın sözün qrammatik mənasından başqa, ifadəyə bir gözəllik, qüvvət verdiyi də nəzərə çarpır;

b) dildə tam formadan fərqlənən yarımçıq və ya naqis forma da işlənir. Bu formanın fərqli xüsusiyyəti ondan ibarətdir ki, burada təkrar edilən sözlərdən birincisi səs tərkibi cəhətdən yarımçıqdır.

Bu forma müasir Azərbaycan dilində normal hal kimi işlənir. Məsələn: *"qap-qara", "gömgöy"* və s. Bu zaman qısaldılmış sözə "p, m, r, s" kimi elementlər əlavə olunur. Məsələn: *"büsbütün", "sapsarı"* və s. Bunlardan başqa, müasir Azərbaycan dilində şiddət dərəcəsini ifadə etmək üçün analitik üsuldan istifadə olunur. Bunun üçün əsli (sadə) sifətlərin əvvəlinə "düm", "tünd", bəzən də "zil" köməkçi sözlər əlavə olunur. Məsələn: "*düm ağ, tünd yaşıl, zil qara"* və s. Çoxaltma dərəcəsinə M.H.Hüseynzadənin yanaşması fərqlidir. Onun fikrincə, *"çoxaltma dərəcəsi üstünlük və şiddətləndirmə növlərini özündə birləşdirir"* [5 s.79]. Üstünlük növü analitik yolla yaranır və bunun üçün sifətlərin əvvəlinə "ən", "lap", "çox", "olduqca" sözləri artırılır. Məsələn: "*ən yaxşı", "lap yaxşı", "çox yaxşı", "ən böyük", "lap böyük", "çox böyük", "olduqca böyük"* və s. *"Ən gözəl mükafat müəllifə çatır"; "Lap yaxşı meyvələri səbətə yığdılar"; "Bu gəncin olduqca gözəl səsi var".* Çoxaltma dərəcəsinin şiddətləndirmə növü üstünlük növündən rəngin, keyfiyyətin və ya əlamətin adi vəziyyətdən qat-qat artıq olması ilə fərqlənir.

Bəzi mənbələrdə sifətin çoxaltma dərəcəsinin aşağıdakı növləri göstərilir:

a) üstünlük növü. Bu növ xüsusi tipli ədatlar vasitəsi ilə düzəldilir. Belə ədatlara şərti olaraq üstünlük ədatları da demək olar. Üstünlük ədatları sifətlərin əvvəlinə qoşulur və birləşmə halında işlənir. Bu ədatlar aşağıdakılardır:

*"ən - ən gözəl, ən yaxşı"; "lap – lap yaxşı, lap qüvvətli"; "daha – daha gözəl, daha yüksək".*

Azərbaycan dilində "daha" ədatı ilə düzəldilən üstünlük növündə nisbət anlayışı daha bariz şəkildə ifadə edilir. Mənanı daha da təsirli ifadə etmək üçün "daha" ədatı ilə sifət arasında da sözü də artırılır. Məsələn: *"daha gözəl – daha da gözəl", "daha qüvvətli – daha da qüvvətli";*

b) artıqlıq növü. Çoxaltma dərəcəsinin artıqlıq növü aşağıdakı vasitələrlə düzəlir:

1) /–ca, -cə/ şəkilçisi ilə: "*yaxşıca", "yamanca"* və s.

2) /m, p, r, s" samitlərindən birinin əsli sifətlərin ilk açıq hecasının saitindən sonra gətirilməsi ilə yaranan xüsusi tipli morfemlərlə. Məsələn: "*sapsarı", "gömgöy", "büsbütün", "tərtəmiz"* və s.

3) "çox" sözünü sifətin əvvəlinə qoşmaqla. Məsələn: "*çox gözəl";*

4) "düm", "tünd" sözlərini sifətin əvvəlinə qoşmaqla. Məsələn: "*düm ağ", "tünd qara";*

5) sifətin təkrarı ilə. Məsələn:
*"Yumru-yumru qayalar*
*Yastığıdır çobanın ...*
*Uca-uca dağlar ..."* [11, s.67].

Bu bölgüdə müəllif artıqlıq dərəcəsini bildirmək üçün "çox" və "tünd", "düm" sözlərini ayrıca bölmə kimi göstərir. Digər tərəfdən 4-cü bölmədə "düm" və "tünd" sözləri qeyd olunduğu halda, "zil" sözü göstərilməmişdir.

AMEA-nın nəşr etdiyi "Müasir Azərbaycan dilinin qrammatikası" əsərində də sifətin çoxaltma dərəcəsindən az da olsa bəhs olunur. Bu əsərdə də sifətin çoxaltma dərəcəsinin morfoloji və sintaktik yolla ifadə olunduğu qeyd olunur. Əsərdə sifətin çoxaltma dərəcəsinin yaranmasında istifadə olunan üsullardan biri də eyni sifətin təkrarı ilə və sifətə müvafiq əşya ilə sifət müqayisə olunur, əşyanın əvvəlki əlamət və keyfiyyətə nisbətən üstün olduğu göstərilir. Belə hallarda birinci sifət çıxışlıq halda işlənir, məsəsələn: "*Məsləkim, şüarım ucadan uca, mən getdim yoldaşlar, gəlin ardımca"* [10, s.125].

Ə.M.Dəmirçizadənin fikrincə, *"ümumiyyətlə bu və ya digər dərəcə anlayışını ifadə etmək üçün bəzi tərkib və cümlələrdən də istifadə olunur: olduqca böyük, son dərəcə azğın, dedikcə qəşəng, gözəldən də gözəl, ceyran kimi gözəl, nə qədər şəfalı, necə də ahəngdar"* [1, s.67]. Məsələn: *"Müsabiqədən sonra dinləyicilər gənc müğənninin necə də ahəngdar səsə malik olduğuna valeh oldular"*.

Q.Ş.Kazımova görə, *"sifətin çoxaltma dərəcəsi əlamət və keyfiyyətin son həddini göstərir, lakin əlamət və keyfiyyət də hüdudsuz olduğundan "son hədd" anlayişi nisbi sayılır. Bu dərəcənin ifadəsi üçün istifadə olunan üsulları fonosintetik və sintaktik olmaqla iki yerə ayırır"* [7, s.122]. Burada üsulların adlandırılması fərqlənsə də (fonosintetik) ümumi izahat əvvəlki izahatlardan fərqlənmir.

Sifətin çoxaltma dərəcəsi ilə bağlı mənbələrin təhlilindən semantik baxımdan sifət əlamət və keyfiyyətin adi dərəcədən yüksək olduğunu ifadə etdiyi məlum olur. Çoxaltma dərəcəsi ilə bağlı terminlərin işlədilməsində tədqiqatçılar arasında fikir ayrılığı olsa da, ümumilikdə bu dərəcənin, əsasən, iki ifadə forması göstərilmişdir; morfoloji və sintaktik. Bu formaların ifadə xüsusiyyətlərində fərqli çalarlar müşahidə olunur. Bu dərəcənin adının hansı terminlə: çoxaltma, üstünlük, şiddət, artıqlıq və s. ifadə olunmasına baxmayaraq, onların hamısı eyni mənanın ifadəsinə xidmət edir.

## Ədəbiyyat:

1. Dəmirçizadə, Ə.M. Azərbaycan dilinə aid tədqiqlər / Ə.M.Dəmirçizadə. – Bakı: Azərnəşr, – 1947. – 128 s.
2. Dəmirçizadə, Ə.M. Dilin lüğət tərkibi və qrammatik quruluşu / Ə.M.Dəmirçizadə. – Bakı: Azərnəşr, – 1965. – 216 s.
3. Eyvazov, A.Q. Müasir türk ədəbi dilində sifətin müqayisə dərəcələri / A.Q.Eyvazov. – Bakı: Azərbaycan SSREA-nın nəşriyyatı, –1967. – 91 s.

4. Əfəndiyev, E.İ. Seçilmiş əsərləri / E.İ Əfəndiyev. – Bakı: Avrasiya Press, – 2005. – 424 s.
5. Hüseynzadə, M. Müasir Azərbaycan dili. III hissə. Morfologiya / M.Hüseynzadə. – Bakı: Şərq-Qərb, – 2007. – s. 280.
6. Казем-бек, М.А. Общая грамматика турецко-татарского языка / М.А.Казем-бек. – Казань: В университетской типографии, – 1846. – 466 с.
7. Kazımov, Q.Ş. Müasir Azərbaycan dili. Morfologiyası / Q.Ş.Kazımov. – Bakı: Nurlan, - 2010. – 400 s.
8. Mirzəzadə, H. Azərbaycan dilinin tarixi morfologiyası / H.Mirzəzadə.– Bakı: Azərtədrisnəşr, – 1962. – 213 s.
9. Musayev, O. Bir daha Azərbaycan dilində sifətin dərəcə kateqoriyası haqqında // – Bakı: Türkologiya jurnalı, – 2014. № 2, – s. 38-49.
10. Müasir Azərbaycan dilinin qrammatikası, II cild / – Bakı: Elm, – 1980, – 510 s.
11. Müasir Azərbaycan dilinin morfologiası / – Bakı: V.İ.Lenin adına APU-nin nəşriyyatı, – 1961. – 190 s.

## Azərbaycan dilində sifətin dərəcələrinin yaranmasının morfoloji və sintaktik üsulları

### Xülasə

Azərbaycan dilində sifətin makrokomparativlik sahəsini təmsil edən azaltma və çoxaltma mikrosahələri əsas formaya münasibətdə əlamət və keyfiyyətin hansı istiqamətdə dəyişikliyə uğradığını göstərir. Dəyişiklikdə əsas əlamətlə müqayisədə ya əlamətin yüksəlməsi, ya da zəifləməsi ifadə olunur. Əlamət və keyfiyyətdə baş verən bu fərqli dəyişiklik dilin qrammatik sistemindəki müxtəlif morfoloji və sintaktik vasitələrlə ifadə olunur. Sifətin azaltma dərəcəsində əşyaya xas keyfiyyətin adi dərəcədəkindən aşağı olması öz əksini tapır. Sifətin azaltma dərəcəsinin ifadəsi morfoloji və sintaktik yolla həyata keçirilir. Burada əşyaya xas əlamət və keyfiyyətin abstrakt şəkildə qəbul edilmiş normadan aşağı olduğu bildirilir.

Sifətin ikinci müqayisə dərəcəsi üstünlük dərəcəsidir. Komparativlik sahəsinin üstünlük dərəcəsində müqayisə olunan keyfiyyət və əlamətlərin bir-birinə münasibət göstəriciləri adi formadakı səviyyədən yüksək olur. Azərbaycan dilində sifətin üstünlük dərəcəsi bütün hallarda analitik üsulla, yəni sifətin qarşısında analitik morfem (“ən”, “lap”, “çox”, “olduqca”) işlətməklə ifadə olunur.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 11, 2024*
*Səh. 103-110*

**МОРФОЛОГИЧЕСКИЕ И СИНТАКСИЧЕСКИЕ СПОСОБЫ ОБРАЗОВАНИЯ СТЕПЕНЕЙ ПРИЛАГАТЕЛЬНОГО В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ**

**РЕЗЮМЕ**

Микрополя уменьшения и первосходства, представляющие собой поле макрокомпаративности прилагательного, показывают, в каком направлении претерпевают изменения знак и качество по отношению к основной форме. Изменение выражается либо в усилении, либо в ослаблении признака по сравнению с основным признаком. Это дифференцированное изменение знака и качества выражается различными морфологическими и синтаксическими средствами грамматической системы языка. В степени уменьшения прилагательного отражается то, что предмет или присущее ему качество ниже обычной степени. Выражение степени уменьшения прилагательного осуществляется морфологическими и синтаксическими способами. Здесь абстрактно говорится, что признак и качество, присущие предмету, ниже принятой нормы. Вторая степень сравнения прилагательного - это превосходная степень. В этой степени в области компаративизма показатели взаимоотношения сравниваемых качеств и признаков оказываются выше степени обычной формы. Степень превосходства прилагательного в азербайджанском языке выражается во всех случаях аналитическим способом, то есть употреблением перед прилагательным аналитической морфемы (“ən”, “lap”, “çox”, “olduqca”).

**İLAHA BAYRAMOVA**

**MORPHOLOGICAL AND SYNTACTIC WAYS OF FORMING ADJECTIVE DEGREES IN AZERBAIJANI LANGUAGE**

**SUMMARY**

The microfields of reduction and primacy, which represent the macrocomparativity field of an adjective, show in which direction the sign and quality undergo changes in relation to the basic form. The change is expressed as either a strengthening or weakening of the sign relative to the primary sign. This differentiated change in sign and quality is expressed by various morphological and syntactic means of the grammatical system of the language. The degree of diminution of an adjective reflects that the subject or inherent quality is lower than the usual degree. The expression of the degree of reduction of an adjective is done by morphological and syntactic means. Here, it says abstractly that the attribute and quality inherent in the subject is lower than the accepted norm. The second degree of comparison of an adjective is the superlative degree. In this degree in comparativism, the indicators of the relationship between the qualities and attributes being compared are found to be higher than the degree of the normal form. The degree of superiority of an adjective in the Azerbaijani language is expressed in all cases in an analytical way, i.e. by using an analytical morpheme (‘ən’, ‘lap’, ‘çox’, ‘olduqca’) before the adjective.

**Rəyçi: dos. Ş.V.Aslanova**